fikir ağıl bacarıq

FAB

Faydasını Alanlar Bilər

Aylıq Bülleten

FAB Boya və Kimya sənayesi MMC. No: 2 (6) • 2009 Pulsuzdur

## «Ədalətsizliklə ədaləti bərpa etmək olmaz.»

**Ümummilli Lider Heydər Əliyev**



# LABORATORİYA SINAQ QURĞUSUNDAN İSTEHSALA GEDƏN YOL...



Təbiətdə olan bütün bitki və canlı orqanizmlər makromolekullardan, yəni polimerlərdən təşkil olunmuşdur. XIX-cu əsrin ortalarına qədər insanlar ancaq üzvi və bitki mənşəli polimerlərdən, başqa sözlə desək, təbii polimerlərdən istifadə edirdilər. Elm, texnika inkişaf etdikcə, yeni və xüsusi keyfiyyətlərə malik polimerlər sintez olunmağa başlandı.

Bu gün fiziki, kimyəvi, mexaniki xassələri təbii polimerlərdən qat-qat üstün olan və onları tam əvəz edən sintetik polimerlərin tədqiqatı istehsalı və analizi sayəsində böyük kimyaçılar ordusu fəaliyyət göstərir. Respublikamızın tikintilərində, mebel lak-boyaq sənayesində, poliqrafiyada istifadə olunan müasir polimer maddələrin istehsalında "FAB Boya və Kimya Sənayesi" MMC-nin çox böyük rolu vardır. Alıcının tələbatını təmin edən keyfiyyətli məhsul istehsal etmək üçün ilk öncə tədqiqat laboratoriyasında təcrübələr aparılır, laboratoriya sınaq qurğusunda ilk sınaq partiyası alınır. Alınan məhsulun keyfiyyət göstəriciləri standartların tələbatına cavab verirsə, sənaye istehsalına başlamaq üçün prosesin texnologiyası işlənib hazırlanır və sənaye miqyasında istehsal üçün tövsiyə olunur.

Biz texnalogiyamızda üzvi həlledicilərdən istifadə olunmasını məhdudlaşdırmaqla su əsaslı polimerlərin istehsalına daha çox üstünlük veririk.

Atmosfer təsirindən, işığa, aqressiv mühitə davamlı, xüsusi bərkliyə malik su bazlı polimerlər əsasında hazırlanmış məhsullar ekoloji cəhətdən çox sərfəlidir.

İlk yoluna tədqiqat laboratoriyasından başlamış hazır məhsul son mərhələdə zavodun keyfiyyətə nəzarət laboratoriyasında fiziki və mexaniki göstəriciləri analiz olunur və sonra qablaşdırılır.

Əminik ki,"FAB Boya və Kimya Sənayesi"MMC-nin kimyaçıları gələcəkdə də yeni texnologiyanın və alıcıların tələbatına uyğun maddələrin istehsal olunmasında aktiv iştirak edəcəklər.



# Ən Dəyərli İnsan



İki qonşu ölkənin hökmdarları bir-birləri ilə döyüşməzlər, amma hər fürsətdə bir-birlərini narahat edirdilər. Ad günləri, bayramlarda qeyri adi hədiyyələr göndərərək birbirlərinə zəkalarının nə qədər güclü olduğunu gösdərirdilər.

Hökümdarlardan biri, günün birində ölkəsinin ən önəmli heykəltaraşını hüzuruna çağırdı və bir qarış yüksəkliyində, bir-biri ilə görünüşdə eyni olan üç insan heykəli düzəldməsini isdədi. Aralarında bir fərq olacaq, amma bu fərqi sadəcə ikisi bilməli idi. Heykəllər hazırlandı və ad günündə qonşu ölkə hökmdarına göndərildi.

Heykəllərin yanına bir də məktub qoyulmuşdu. Belə yazmışdı heykəlləri düzəltdirən hökümdar: "Ad gününü bu üç qızıl heykəllə təbrik edirəm. Bu üç heykəl bir-birinin eynisi kimi görünə bilər, amma içlərindən biri digər ikisindən çox daha dəyərlidir. O heykəli tapınca mənə xəbər ver." Hədiyyəni alan hökmdar öncə heykəlləri tərəzidə çəkdirdi. Üç qızıl heykəl qramına qədər bərabər idi. Ölkəsində nə qədər sənətkar insan varsa çağırtdı. Hamısı da heykəlləri böyük diqqətlə araşdırdılar, amma aralarında bir fərq görə bilmədilər. Günlər keçdi. Bütün ölkə hökmdarın sıxıntısını eşitmişdi və heç kim həll yolu tapa bilmirdi. Nəhayət, hökmdarın çox üsyankar olduğu üçün zindana atdırdığı bir gənc hökmdara xəbər göndərdi. Yaxşı oxumuş, ağıllı və zəkalı olan bu gənc, hökümdarın bəzi istəklərinə qarşı çıxdığı üçün zindana atılmışdı.

Başqa çarəsi olmayan hökmdar bu gənci çağırtdı. Gənc öncə heykəlləri çox incəliklə araşdırdı, sonra çox incə bir tel gətirilməsini istədi. Elə birinci heykəlin qulağından soxdu, tel heykəlin ağzından çıxdı. İkinci heykələ də eynilə etdi. Tel bu dəfə digər qulaqdan çıxdı.

Üçüncü heykəldə tel qulaqdan girdi, amma bir yerdən çıxmadı. Ancaq, telin sığa biləcəyi bir kanal ürəyə qədər enir, oradan uzağa getmirdi.

Hökümdar heykəlləri göndərən qonşu hökmdara cavabı yazdı:

· *Qulağından girəni ağzından çıxardan insan, dost deyildir - sirr saxlamaz.*

· *Bir qulağından girən digər qulağından çıxırsa, o insan da Arif deyildir - düşünməz.*

· *Ən Dəyərli İnsan, qulağından eşitdiyini ürəyinə basdıran və düşünən insandır. Bu dəyərli hədiyyən üçün çox təşəkkür edirəm.*

# Ateist



Ateist bir nəfər bir gün meşədə gəzir və ətrafındakı gözəlliklərə baxırmış. "Təbiət nə gözəlliklər yaradır!" deyə düşünüb məst olurmuş. Birdən arxasında böyük bir ayı peyda olur və onu qovlamağa başlayır. Adam bütün gücüylə qaçır, amma hər arxasına baxdıqda ayının daha da yaxınlaşdığını görür. Dəqiqələrcə sürən bir qaçışın sonunda adamın ayağı yerdəki ağac kökünə ilişir, ayı adamın üzərinə atılır, pəncəsini qaldırır. Tam vurmağa hazırlanarkən adam "ALLAHIM !!!" deyə bağırır. Bir anda zaman durur, ayı donur, meşədəki çay belə axmaz olur. Bir anda meşə qaralır və göy üzündən bir işıq adamın üzərinə parıldayır.

Çox dərindən gələn ilahi bir səs adama: "İllərcə mənə inanmadın, yaradılışı kosmik bir qəzaya əlaqələndirdin, sənə bu vəziyyətdə kömək etməyimi isdəyirsən? Səni sevimli bir qulum saymalıyım?" deyir. Adam utancaq bir şəkildə: "Bilirəm bu qədər ildən sonra dindar biri olmağı istəməyim haqqsızlıqdır, amma mən müsəlman olmasam da, bəlkə ayını dindar edə bilərsiniz." deyir.

İlahi səs: "Yaxşı."- deyir. Çay təkrar axmağa başlayır. Hər şey əvvəlki halına dönür. Ayı pəncəsini endirir, iki pəncəsini də göyə doğru çevirir və danışmağa başlayır: "ALLAHIM, Sənin rizan üçün oruc tutdum, Sənin ruzinlə orucumu açıram, şükür olsun verdiyin nemətlərə."- deyir və ...

# Verdiyiniz Hər Qərarı Düşünün...



Qarabağ müharibəsindən sonra evinə dönəcək olan bir əsgər ailəsinə zəng etdi:

- "Ana, ata evə qayıdıram, amma sizdən bir şey xahiş edəcəyəm. Özümlə bir dostumu da gətirmək istəyirəm."

- "Məmnuniyyətlə, onunla tanış olmaq isdəyərik" - deyə cavab verdilər. Oğulları "Bilmədiyiniz daha bir şey var." deyə davam etdi.

- "Dostum döyüşdə ağır yaralandı, bir minaya düşdü və bir qoluyla ayağını itirdi. Gedəcək heç bir yeri yoxdur və onun gəlib bizimlə qalmasını istəyirəm."

- "Bunu eşitdiyimə görə çox pis oldum oğlum. Bəlkə onun başqa bir yer tapmasına kömək edə bilərik."

- "Xeyr. Ana, ata onun bizimlə qalmasını istəyirəm."

- "Oğlum." dedi atası.

- "Bizdən nə isdədiyini bilmirsən. O bizə çox ağır yük olar. Bizim öz həyatımız var və bunun kimi bir əlilin həyatımıza əngəl olmasına izin verə bilmərik. Məncə bu dostunu unudub evə dönməlisən. O öz-özünün başının çarəsinə baxacaq."

Oğlu o anda telefonu bağladı. Ailəsi ondan xeyli vaxt xəbər ala bilmədi, amma bir neçə gün sonra, polisindən bir zəng gəldi. Oğullarının yüksək mərtəbəli bir binadan düşüb öldüyünü öyrəndilər. Polisə görə bu bir intihar idi. Kədər içində ana və ata o anda oraya yollandılar və oğullarının cəsədini tapmaq üçün şəhər morquna getdilər.

Ana və ata oğullarını görən kimi tanıdılar, yalnız bilmədikləri bir şeyi də öyrəndikdə dəhşətə gəldilər və çox peşiman oldular...

Oğullarının sadəcə bir qolu və bir ayağı vardı...



## LİDERLƏRDƏ KARİZMA ƏMƏLƏ GƏTİRƏN XÜSUSİYYƏTLƏR

- Təsir edici bir səs tonu,
- Yüksək xitab etmə gücü,
- Bədən dilini təsirli istifadə etmə,
- Təsir edici baxışlar,
- Böyük və fərqli düşüncə,
- İşə ciddiyətlə yanaşmaq,
- Təsir edici şəxsi
- Səlahiyyət və məsuliyyəti hər zaman düzgün müəyyənləşdirmək,
- Qərar alınarkən müzakirələr aparmaq,
- Yüksək diyaloq və dinləmə qabiliyyəti,
- Əlaqədar şəxslərin fikirlərindən istifadə qabiliyyəti,
- Qərarlılıq və qətiyyət
- Planlı iş gündəliyi və rejimi

**Savad insanı şübhədən, yaxşılıq acı çəkməkdən, qərarlı olmaq qorxudan xilas edər.**


## FAB - Universal Boya Rəngləndiricisi

**Məhsul Haqqında Məlumat:**
Universal, konsantre pigment pastasıdır.

**Tədbiqat Sahələri**
Su və solvent əsaslı ağ və dekoratif boyalar, sıvaqlar, astarlar, su əsaslı ağ sənaye boyalar, laklar, lak kimi şəffaf materialların rəngləndirilməsində istifadə edilir.

**Xüsisiyyətləri**
Rəng tüpü adıyla bilinən klassik rəngləndirmə sistemlərindəki kimi rəngli boya olmayıb, işığa və çöl cəphə dayanaqlılığı yüksək, universal, konsantre pigment pastasıdır. Yüksək rəngləndirmə gücü ilə istənən rəngi az miqtar ilə əldə edilə bilməsini təmin edər. Hər növ örtmə materillarının, xüsisiyyətlərini təhrif etmədən rəngləndirə bilər. Ambalaj içində qurumaz.




**Faydasını Alanlar Bilər!**

# Çox ağıllı fikir...



New Yorkda bir bankın önündə duran son model RollsRoyce avtomobildən enən işadamı, sürətli addımlarla banka girdi və önünə çıxan ilk şirkət nümayəndəsinə, fərdi kredit üçün müraciət etmək istədiyini söylədi. Nümayəndə onu, müştəri təmsilcisinə apardı. İşadamı, çox təcili bir iş üçün Avropaya getmək məcburiyyətində qaldığını və bu səbəblə bir həftə müddətinə beş min dollar kreditə ehtiyacı olduğunu söylədi. Müştəri təmsilçisi qısa bir araşdırma etdikdən sonra dedi. "Maliyyə vəziyyətinizi öyrəndik. Bu krediti ala bilməniz üçün bir əngəliniz yoxdur" dedi və davam etdi: “Ancaq bir mövzunu diqqətinizə çatdırmalıyam. Bizim bankımızla daha əvvəl heç işləməmisiniz. Bank olaraq sizi rəsmi tanımırıq. Buna görə də, bu krediti verə bilmək üçün qarşılığında sizdən bir təminat almaq məcburiyyətindəyik." İşadamı cibindən RollsRoyceun açarlarını çıxardı, bankın müştəri təmsilcisinə uzatdı:

- "Çox tələsirəm, təyyarəyə çatmalıyam" dedi. "Qapıdakı Rolls Royceumu təminat olaraq ala bilərsiniz".

Kredit üçün sənədlər çox sürətli bir şəkildə bitdi. Bank Rolls Royce avtomobilini bankın qarajına gətirdilər, işadamına da beş min dollar krediti verdilər. Müştəri təmsilcisi şəxsi marağına görə xüsusi bir araşdırma etdi və bu yeni müştərinin çox böyük bir iş adamı və çox böyük bir sərvət sahibi olduğunu öyrəndi. Bir həftə sonra işadamı yenidən gəlib, borcunun kökü olan beş min dollarla, bir həftəlik faizi doqquz dolları ödədikdən sonra, müştəri təmsilcisi soruşdu: "Sizin, çox böyük bir iş adamı və çox böyük bir sərvətin sahibi olduğunuzu öyrəndim" dedi. "Yalnızca şəxsi marağımdan soruşuram. Zəhmət olmazsa deyə bilərsiz, sizin üçün çox kiçik bir miqdar olan beş min dollarlıq kreditə niyə ehtiyacınız oldu?"

İşadamı sakitcə gülümsədi və dedi: "Siz də mənə zəhmət olmazsa söyləyə bilərsiniz ki, belə luks bir avtomobili, New Yorkda hansı bir örtülü qarajda, bir həftə boyunca doqquz dollara saxlaya bilərdim?”

***Pul qazanmaq sadəcə çalışmaq və istəklə olmaz, ağıl və düşüncə də vacibdir.***

**TƏBRİKLƏR**

**Əməkdaşlarımızdan Cəfər Hümbətovu və Elnur Zeynalovu ailə həyatı qurması, Fikrət və Kabirə Rəcəbovları isə qız övladlarının ailə qurması, Anar Hacıyev, İsa Bağırov, Könül Əliyeva və Aqil Məmmədovu nişanlanması, Müşfiq Tahirovu oğul övladının, Nazim Paşayevi isə nəvəsinin dünyaya gəlməsi münasıbəti ilə kollektivimiz adından təbrik edir, ailə səadəti, yeni doğulan körpələrə isə sağlam həyat arzulayırıq.**

**ALLAH RƏHMƏT ELƏSİN!**

**Fariz Hacızadəyə atası və anasının, Elnur Məhərrəmova anasının, Nazim Paşayevə dayısının, Bəşir Vəliyevə isə yaxın qohumunun vəfatından kədərləndiyimizi bildirir, mərhum və mərhumələrə Allahdan rəhmət, ailələri və yaxınlarına başsağlığı və səbr diləyirik.**


FAB Boya və Kimya Sənayesi MMC.

**FABRİK**

Azərbaycan Respublikası, Bakı şəhəri,
Binəqədi rayonu, Binəqədi qəsəbəsi, 1-ci Mədən küçəsi,
Tel: (+994 12) 447 72 03; Fax: (+994 12) 447 72 06;
e-mail: mail@fabboya.az; URL: www.fabboya.az

**OMİD MAĞAZASI**

Azərbaycan Respublikası, Bakı şəhəri,
Binəqədi rayonu, Rəsulzadə qəsəbəsi, 15-ci sıra 85/87
Tel: (+994 12) 447 02 00, 513 13 84;
Fax: (+994 12) 447 06 00;
e-mail: mail@fabboya.az; URL: www.fabboya.az


ağıl bacarıq fikir